**AZƏRBAYCAN RESPUBLİKASI**
**DÖVLƏT STATİSTİKA KOMİTƏSİNİN APELLYASİYA ŞURASI**

# Q Ə R A R

**№ 6**

**Bakı şəhəri** **30 yanvar 2026-cı il**

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Apellyasiya Şurası Zöhrə Namik qızı Abuşovanın Ağsu Rayon Statistika İdarəsinin məsləhətçi vəzifəsinin tutulması üçün 2025-ci il dekabr ayının 26-da keçirilən müsabiqə üzrə müsahibənin nəticəsinə dair şikayətinə baxaraq müəyyən etdi:

Namizəd Abuşova Zöhrə Namik qızı Ağsu Rayon Statistika İdarəsinin məsləhətçi vəzifəsinin tutulması üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən 2025-ci il iyul ayının 14-də elan edilmiş müsabiqə üzrə müsahibə mərhələsində iştirak etmişdir. Müsahibə 2025-ci il dekabr ayının 26-da Dövlət Statistika Komitəsi aparatının Qiymət statistikası şöbəsinin müdiri Aqil Hüseynov, Dövlət İmtahan Mərkəzinin nümayəndəsi Rafiq Vəliyev və müstəqil ekspert Ziyəddin Musayevdən ibarət komissiya tərəfindən keçirilmişdir. Abuşova Zöhrə Namik qızına müsahibə komissiyasının üzvlərindən A. Hüseynov 15 bal, R. Vəliyev və Z.Musayev 16 bal vermiş və nəticədə iştirakçı 15.7 bal toplayaraq müvəffəqiyyət qazana bilməmişdir.

Müsahibənin nəticəsindən narazı qalan namizəd "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 29-1-ci maddəsinə və "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 435 nömrəli Fərmanının 3.23-1.1-ci yarımbəndinə əsasən Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasına 08.01.2026-cı il tarixdə şikayət ərizəsi ilə müraciət etmişdir.

Apellyasiya Şurasının iclasında aparılmış müzakirələrə əsasən namizədin vəzifəyə uyğun hesab edilmədiyi müəyyən edilmişdir.

Yuxarıda göstərilənlər və Apellyasiya Şurası üzvlərinin müzakirələrdən sonra gəldiyi yekun nəticə nəzərə alınaraq Dövlət Statistika Komitəsinin Apellyasiya Şurası **qərara aldı**:

1. Abuşova Zöhrə Namik qızının 2026-cı il 8 yanvar tarixli apellyasiya şikayəti təmin edilməsin və Ağsu Rayon Statistika İdarəsinin məsləhətçi vəzifəsinin tutulması üçün 2025-ci il dekabr ayının 26-da keçirilən müsabiqə üzrə müsahibənin nəticəsi qüvvədə saxlanılsın.
2. S.Süleymanova Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasının qərarı qəbul edildiyi gündən onun surətinin üç gün müddətində Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə və şikayətçiyə təqdim edilməsini təmin etsin.

**Sədr** **Vahab Məmmədov**

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi
SƏNƏDLƏR ÜÇÜN

Əsli ilə düzdür: M. Elmaddinov E. Ağaliyev